# Markesin "...sevgi qınağı" rusdilli səhnədə

**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı mövsümün növbəti premyerasını təqdim edib.**



Dünya şöhrətli Kolumbiya yazıçısı Qabriel Qarsia Markesin "Kürsüdə əyləşmiş kişiyə sevgi qınağı" pyesi əsasında hazırlanan monotamaşa Xalq artisti Natalya Şarovskayanın 65 illik yubileyinə həsr edilib.

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Aleksandr Şarovskidir. Əməkdar mədəniyyət işçiləri Aleksandr Fyodorov və Olqa Abbasova "Kürsüdə əyləşmiş kişiyə sevgi qınağı"nın dekorasiya və geyim həllinin müəllifləridir. Səhnə əsərinin musiqi tərtibatçısı Əməkdar mədəniyyət işçisi Vladimir Neverov, xoreoqrafı Olqa Arsentyeva, işıq rəssamı Nikolay Rudıçevdir.

Tədqiqatçılar Markesin birpərdəli yeganə pyesini qadınlar üçün yazılmış əsər kimi dəyərləndirirlər. Tamaşa çox gənc yaşlarından dəlicəsinə aşiq olduğu gənci seçərək onunla qarşılıqlı sevgidən tam biganəliyədək bütün hissləri yaşamış, artıq evliliyinin 25 illiyinə hazırlaşan Qadının etiraf və qınaqları üzərində qurulub...

Sənhə əsərinin sonunda Natalya Şarovskayaya Mədəniyyət Nazirliyinin və Azərbaycan Teatr Xadimləri İttifaqının təbrik məktubları təqdim edilib. Yubilyar bu əlamətdar günü onunla bölüşən hər kəsə minnətdarlığını bildirib. O, Azərbaycanda doğulduğuna, yaşadığına və yaratdığına görə sevindiyini qeyd edib. Aktrisa, gözəl tamaşa üzərində işləyən həmkarlarına da təşəkkürünü bildirib.

***GÜLCAHAN***

Xalq qəzeti .- 2024.- 4 iyun, № 116.- S.10.